Crowe Horwath Business Alliance üzvü

MAK Azərbaycan Ltd

AZ1023, Azərbaycan, Bakı, Salyan şossesi 2, bina 2, m. 19/20; Tel: (+994 12) 492 78 56, 437 41 56, 437 41 47;
Faks: (+994 12) 437 41 26; E-mail: makbaku@auditmak.az; www.auditmak.az

MR- 003

# Müstəqil Auditorun Hesabatı

«İpək Yolu Siğorta» Açıq Səhmdar Cəmiyyətinin
Səhmdarlarına və İdarə Heyətinə
Azərbaycan Respublikası, Bakı şəhəri,
Z.Əliyeva küç., 55, Yeni Həyat Plaza.

Biz «İpək Yolu Siğorta» Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2015-ci il tarixinə maliyyə vəziyyəti, məcmu gəlirlər, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Rəhbərlik göstərilən maliyyə hesabatlarının Maliyyə Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Bizim vəzifəmiz isə həmin maliyyə hesabatları üzrə apardığımız auditə əsaslanaraq rəyin bildirilməsidir. Audit beynəlxalq audit standartlarına uyğun olaraq aparılmışdır. Həmin standartlara uyğun olaraq, bizdən auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə əmin olacaq tərzdə həyata keçirmək tələb olunur. Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlanan məlumatı dəstəkləyən sübutun test əsasında yoxlanılması daxildir. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir. Biz inanırıq ki, apardığımız audit rəy bildirilməsi üçün kifayət qədər əsas verir.

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2015-ci il tarixinə cəmiyyətin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə məcmu gəlirlər və pul vəsaitlərinin hərəkəti üzrə Maliyyə Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

«MAK Azərbaycan LTD» MMC-nin

**Direktoru:** Zamin Hüseynov

**Auditoru:** Nail Seyfulla

29 mart 2016-cı il

Bakı, Azərbaycan Respublikası